Azadlıq Radiosu

MEDİA İCMALI

# FT: Aİ Ermənistana ticarət güzəştləri hazırlayır

İyun 17, 2026




Ermənistanda konyak mağazası

Avropa İttifaqı (Aİ) Rusiyanın idxal məhdudiyyətlərinin təsirini azaltmaq üçün Ermənistana təcili ticarət dəstəyi hazırlayır. Bu haqda "Financial Times" məlumatlı mənbələrə istinadla yazır.

Məlumata görə, Avropa Komissiyası "avtonom ticarət tədbirləri" paketi üzərində işləyir. Plandan xəbərdar dörd mənbənin dediyinə görə, Ermənistanın ərzaq və kənd təsərrüfatı məhsullarının ixracına rüsumların azaldılması nəzərdə tutulur.

## İldə 420 milyon avroluq məhsul

Təşəbbüsün Rusiyanın Ermənistana son parlament seçkiləri ərəfəsində tətbiq etdiyi idxal qadağalarına cavab olaraq hazırlandığı bildirilir. Brüssel hesab edir ki, bu məhdudiyyətlər ölkənin qərbyönlü hökumətinə təzyiq göstərmək məqsədi daşıyıb.

Tədbirlərin qüvvəyə minməsi üçün Aİ-yə üzv dövlətlərin əksəriyyətinin və Avropa Parlamentinin təsdiqi tələb olunur. İki mənbənin sözlərinə görə, paket Rusiyanın qadağa tətbiq etdiyi təxminən 20 məhsul kateqoriyasının əksəriyyətini əhatə edəcək. Həmin məhsulların illik dəyəri təxminən 420 milyon avrodur.

Digər iki mənbə bildirib ki, təkliflər yaxın həftələrdə təqdim oluna bilər.

Rəsmilərin sözlərinə görə, Aİ xarici işlər nazirləri bazar ertəsi – iyunun 15-də Lüksemburqda Ermənistanın xarici işlər naziri ilə bu məsələni müzakirə ediblər. Aİ-nin genişlənmə üzrə komissarı **Marta Kos**un da gələn ayın əvvəlində Ermənistana səfəri gözlənilir.

## Moskvanın qadağaları

Ermənistanda 7 iyun parlament seçkiləri öncəsi Rusiya keyfiyyət standartlarını əsas gətirərək bu ölkədən bir sıra malların bazara girişini məhdudlaşdırıb. Ermənistanın baş naziri **Nikol Paşinyan** isə bu addımlara cavabında bəyan edib ki, Yerevan Rusiyaya idxalı qadağan edilən məhsulları Avropa İttifaqı bazarına çıxaracaq. O, hökumətin Rusiyanın son qadağalarından zərər çəkmiş və haqsızlıqla üzləşmiş bizneslərə subsidiya ayıracağını da bildirib.

Rəsmi Moskva yenə seçki ərəfəsində Ermənistana dönə-dönə xatırladır ki, ölkə eyni vaxtda həm Avropa İttifaqı ilə münasibətlərini dərinləşdirə, həm də Avrasiya İqtisadi İttifaqında (AİI) qala bilməz. AİI-nin digər üzvləri – Belarus, Qazaxıstan və Qırğızıstan liderləri Rusiya prezidenti **Vladimir Putin**ə qoşularaq Ermənistanda referendum keçirilməsinə çağırırlar. Paşinyan isə Ermənistanın AİI-də qalacağını bildirib.

7 iyun seçkisində hakim "Vətəndaş Müqaviləsi" Partiyası səslərin təxminən 49.8 faizini toplayaraq 105 yerlik Milli Assambleyada 64 mandat qazanıb.


## Buna da bax:

Ermənistan KTMT-dən çıxarılsa nə olar? – 'Ordu silahsız qala bilər'

Ermənistanda seçkinin nəticələri təsdiqləndi: 'Çiçəklənən Ermənistan' parlamentdən kənarda qaldı

Qərb mediası: Paşinyanın dar qələbəsi sülh sazişini sual altına qoyur

Rusiyadan Ermənistan məhsullarına yeni qadağalar

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur